

Furqan

## DÜNYA DEDİYİN

dünya haqda uzun uzun danışmağa dəyməz
nə də uzun yaşamağa dəyməz

plastik su qabıdı ömür
və bu qaba doldurulmuş qazlı sudu adam

gün altında qalanda qabın şişdiyi kimi
qəm altında qalanda ağız burnu şişir ömrün

partlayır burulğanlarda çox çalxalandıqca
dünya dediyin budu da
budu adam

## HEY

umudlar bulud bulud
buludlar axında
buludlar söyüd söyüd
söyüdlər salxımdı

adamlar ömür ömür
ömürlər ovucda
ömürlər qabar qabar
qabarlar qorxuncdu

ağrılar tale tale
talelər təpikli
təpiklər ağrı ağrı
ağrılar təbii

olsa da ömür zülüm
yenə də axırda
umudlar bulud bulud
buludlar axında

## UNUDULANLAR ÜÇÜN HÖNKÜRTÜ

bu nahaq dünyada adından göründüyütək
haqsızlıqlar çıxacaq qarşına dost

uzun bir eeeeeeh deyib ötəcəksən yenə də
döyməyəcəksən dizinə vurmayacaqsan başı-
na dost

məsələn bəzi yerlərdə özün olduğun halda
siyahıda adın görünməyəcək
arxa planda qalan və yaxud unudulan
yenə sən olacaqsan

məsələn
üçrəngli bayraqdakı bəyaz rəng olacaqsan

## TEOREM

eynəyimin şüşələri nə qədər böyüdür böyüt-
sün
fərqi yox
nəsən ki guya

elə o boydasan elə əvvəlkisən
balacasan cılızsan dünya

yaxın gəlməz uzaqlar

dənizin ortasında
hər şeydən uzaq düşən
kiçik bir ada kimi
sükut içərisində
bir sıldırım qayaya
dəyib geri qayıdan
səs kimi səda kimi
yalqızam canım gözüm

bir deyən də yoxdu ki
ay evin yıxılmasın
belə yaxın dost olma
həsrətlə intizarla
axı özün bilirsən
həsrət binokl deyil
yaxın gəlməz uzaqlar

## SÜKUT

gecə
ölü gündüzlərin qara kağızı
zaman
poçt qutusu
və mən
və sən
və biz

şeirə heç bir dəxlimiz yoxdu bizim
bilirsiz

## ÜMİD BURXULMALARI

nə yaman soyuqdu adamlar belə
qarlı gecələrin şaxtası kimi
başımı götürüb hayana gedim
yolsuzam dilənçi duası kimi
mən bu soyuqluqdan tərlədim axı
yaşaran gözümün qarası kimi

qara gözlərimdə
bir az da
bir az da nifrət çaları
ürəyimdə ümid burxulmaları

## BAĞIŞLAYIN ƏCƏB ELƏDİM

*Müşfiq Cəbi üçün*

nə qədər yazsan da çıxıb gedəsən
heç yana getmək olmur
olmur da
nə edəsən

asasan özünü günəşin saçlarından
yaxud da atasan özünü üfüqdən aşağı

sonra da məktub yazasan o dünyadan
huşum özümdə deyildi
sərxoş idim
nə elədimsə göz yaşlarımı içib elədim

və ən sonda üzr istəyəsən hamıdan
bağışlayın əcəb elədim

## BİR QOCANIN SAATSAZA OXUDUĞU ŞEİR

gəl zamana tərif verim
sən də otur qulaq as
divardakı saatların
birin götür qulaq as

saatlar məcburdu vaxtın
leşini daşımağa
elə vaxt olur vaxt olmur
başını qaşımağa

ölərmi əqrəbi geri
dönsə saatlarının
mən günlərimi sayıram
sənsə saatlarını

## VİDA İŞARƏSİ

nida işarəsidi
şəhid oğlunun məzarı üstə dua oxuyan ata
və vida işarəsidi
gözlərində gilələnən damcılar

sanki indicə bütün ölülər qalxıb
atanın üstünə yeriyəcəklər
nooolar o mübarək dualarından
bizə də ver deyə

ata duasını dilimləyib paylayacaq
hər dilimini bir ölüyə

## ÇAT

bir damcı yağış istəyiylə
çatlaq çatlaqdı torpaq

geriyə dönüş istəyiylə döyüş istəyiylə
çatlaq çatlaqdı Qarabağ

bir ömür sülh istəyiylə bütövdü
tamdı uşaqların gülüşü

və adamların nifrət nifrət ürəklərində
çatlaq çatlaqdı sülh

## YAĞIŞ

bu yağış nə yaman haqladı bizi
evdə dustaq kimi saxladı bizi

hamı bu yağışdan qaçıb gizlənir
inanmıram kimsə göyə dırmana
çəksəm ciyərimə torpağın ətrin
torpaq olanacan bəs edər mənə
nə xoş

amma ki
şıdırğı yağmaqla döşünə döymə
belə az öyünə bilərsən yağış
bu evin damını boşuna döymə
qapıdan buyura bilərsən yağış